# ABAD-çı sənətkarın uğur hekayəsi - keramikada milli izlər

**"ABAD"ın dəstək göstərdiyi şəkili sənətkarlardan biri də gənc rəssam Zaur Əhmədovdur. O, 2011-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirərək, biliklərini praktik sənətkarlıqla birləşdirməyə müvəffəq olub. Hazırda Şəki şəhərində yerləşən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzində rəssam-keramikaçı kimi fəaliyyətini davam etdirən Zaur palçıq və boyaların vəhdətindən milli ruhlu modern nümunələr yaradır.**



AZƏRTAC-ın bölgə müxbiri gənc sənətkarla görüşüb, onun yaradıcılıq yolu və uğurları ilə maraqlanıb.

Zaur Əhmədov Rəssamlıq Akademiyasını bitirdikdən sonra bir müddət zərgərlik fəaliyyəti ilə məşğul olub, bu sahədə peşə təcrübəsinə yiyələnib. Əmək fəaliyyətinə 2015-ci ildə Şəki Dövlət Rəsm Qalereyasında bərpaçı-rəssam kimi başlayıb. Gənc sənətkar, eyni zamanda fərdi yaradıcılığına da xüsusi diqqət ayırıb, kiçikölçülü qaya daşlarının üzərində rəngli boyalarla rəsm əsərləri yaratmaqla məşğul olub.

Rəssam-keramikaçı öz biznesini genişləndirmək, eyni zamanda Şəkinin gənc sənətkarlarını bir çətir altında toplamaq məqsədilə sənət dostu Asim Abbasovla birgə "ArtClub Kafe - Emalatxana" konseptini yaradıb. Bu sahədə ilk addımlarını atan Zaur əl işlərinin Şəkidən kənarda da tanıdılmasına nail olmaq, daha geniş satış bazarına çıxmaq, gəlirlərini artırmaq məqsədi ilə "Ailə Biznesinə ASAN Dəstək" layihəsinə - ABAD-a qoşulmaq qərarına gəlib və 2017-ci ildə onun bu arzusu gerçəkləşib.

Onun fəaliyyəti təkcə fərdi yaradıcılıqla məhdudlaşmır, tətbiqi sənətin qədim ənənələrini qoruyub saxlayaraq onları müasir üslubda yenidən işləyir. ABAD-ın təqdim etdiyi geniş texniki imkanlar və yaradıcı mühit Zaur Əhmədovun əl işlərinin həm yerli, həm də xarici turistlər üçün cəlbedici sənət nümunəsinə çevrilməsinə şərait yaradır. Şəkinin tarixi atmosferindən ilhamlanan gənc rəssamın keramika məhsulları sənətin nəsildən-nəslə ötürülən estetik dəyərini və ABAD-ın milli brendləşmə missiyasını özündə parlaq şəkildə təcəssüm etdirir.

"Əvvəllər hazırladığım əl işlərini satmaq üçün Şəkidəki mağazalara, sənətkarlıq dükanlarına təqdim edirdim. Biznesimi genişləndirməkdə çətinlik çəkirdim. ABAD-a qoşulduqdan sonra artıq əl işlərim Şəki ilə yanaşı, Bakıda və digər şəhərlərimizdə yerləşən mağazalarda, sənətkarlıq mərkəzlərində də satılır. Sifarişlərim xeyli çoxalıb. 2018-ci ildə Şəkidə ABAD Keramika və Tətbiqi Sənət Mərkəzi açılanda ABAD-la əməkdaşlıq etdiyim üçün məni də mərkəzə dəvət etdilər, təlimlərdə iştirak etdim, rəssam-keramist ixtisasına yiyələndim. İndi mən özüm burada təşkil olunan təlimlərdə gənclərə bu sənətin sirlərini öyrədirəm", - deyə o bildirib.

Həmsöhbətimiz vurğulayıb ki, mərkəz fəaliyyətə başladığı gündən bəri burada onlarla gənc keramist yetişib və hazırda onların bir çoxu bu sənətlə fərdi şəkildə məşğul olur.

Gələcək planları barədə danışan Zaur Əhmədov deyib: "Hazırda Azərbaycanın məşhur tarixi abidələrinin suvenir formasında, kiçik ölçüdə keramik maketləri üzərində işləyirəm, qəliblərini hazırlayıram. Bu abidələrə Şəkidəki, eləcə də Bakı, Qarabağ, Gəncə və digər regionlardakı məşhur abidələr daxildir. Turistlər üçün nəzərdə tutulan bu iş ABAD tərəfindən sifariş verilib. Qəliblər tam hazır olduqdan sonra növbəti mərhələdə bu suvenirləri keramikdən seriyalı şəkildə istehsal etməyə başlayacağam".

Beləliklə, Zaur Əhmədovun nümunəsi fərdi istedadın dövlət dəstəyi və müasir yanaşma mexanizmləri ilə birləşdikdə necə böyük uğurlara yol açdığını bir daha sübut edir.

Azərbaycan. - 2026.- 4 fevral (№21).- S.11.